**1920-1930-CU İLLƏRDƏ GƏNCƏ ERMƏNİLƏRIN IŞĞALÇILIQ PLANLARINDA**
1920-1930'LARDA GENCE ERMENIİLERİN İŞGAÇİLİK PLANLARINDA
*GANJA IN THE ARMENIAN OCCUPATION PLANS (1920-1930)*

**Gülzar İBRAHİMOVA**[1*2*]

**XÜLASƏ**
Məqalədə 1920-1930-cu illərdə sovet Rusiyasının sovet Ermənistanına dəstəyi ilə Azərbaycanın ərazi məsələləri ilə bağlı qəbul edilən ədalətsiz qərarlar və Gəncə ilə bağlı ermənilərin işğalçılıq planları şərh edilir. Göstərilir ki, Cahangir bəy Kazımbəyovun liderliyi ilə Azərbaycan Milli Hərbi Birliklərinin Gəncədə 1920-ci ilin aprel-may aylarında Azərbaycanın bolşeviklər tərəfindən işğalına qarşı ciddi müqaviməti mərkəz qarşısında ərazilərinin tutulması ilə razılaşmayan bir xalqın iradəsini ortaya qoymuşdur. Strateji mühiti, mövcud qüvvələr balansını və xüsusilə qarşı tərəfin hərbi vəziyyətini diqqətlə öyrənən üsyançıların məqsədi Gəncədə yeniden Milli Azərbaycan dövlətini qurmaq idi. Lakin bolşeviklər heş bir halda buna yol vermədilər və əlavə qüvvələr çağırmaqla XI Qızıl Ordu əsgərləri 8.5 min əsgərini itirsədə 31 mayda üsyanı yatıra bildi. Azərbaycan generalları Nargin adasında güllələndi, Milli Ordu ləgv edildi, 12 min müsəlman əhali öldürüldü. Sovetləşmənin ilk illərindən başlayaraq ermənilər rusların dəstəyi ilə digər Azərbaycan əraziləri kimi Gəncə torpaqlarına da iddia qaldırdılar. Onlar müxtəlif bəhanələr gətirməklə Qara-çınar, Yeni-kənd, Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Manaşid, Qaxtut, Buzluq, Xarxaput, Erkeç, Boris (erməni), Boris (rus), Gülüstan, Sarısu (türk) və Gürzulər kəndlərinin Dağlıq Qarabağa birləşdirilməsi üçün havadarları olan mərkəz Moskvadan tələb edirlər. Lakin Gəncə xalqının və o dövrki Azərbaycan rəhbərlərinin mərkəz Moskavaya əsaslı dəlillərlə qəti etirazı və inadlı mübarizəsi nəticəsində buna nail ola bilmədilər.

**Açar sözlər:** Sovetləşmə, Sərhəd, Azərbaycan, Ermənistan, Gəncə

**ÖZET**
Makalede 1920-1930 yıllarında Sovyet Rusya Sovyet Ermenistanı'na desteği ile Azerbaycan'ın toprak meseleleri ile ilgili kabul edilen haksız kararlar ve Gence ile bağlı Ermenilerin işgal planları yorumlanmaktadır. Gösterilir ki, Cahangir bey Kazımbəyovun liderliği ile Azerbaycan Milli Askeri Birlikleri'nin Gence'de 1920 yılının Nisan-Mayıs aylarında Azerbaycan'ın Bolşevikler tarafından işgaline karşı ciddi direnişi merkezin önünde kendi toprakların tutulması ile protesto eden bir halkın iradesini ortaya koymuştur. Stratejik ortamı, mevcut güç dengesini ve özellikle de karşı tarafın askeri durumunu dikkatle inceleyen isyancıların amacı, ulusal Azerbaycan devletini Gence'de yeniden kurmaktı. Fakat bolşevikler heş bir halde buna yol vermediler ve ek kuvvetler çağırmakla XI Kızıl Ordu askerleri 8.5 bin askerini kayp etsede, 31 Mayıs'ta isyanı yatıra bildi. Azerbaycan generalleri Nargin adasında kurşuna dizildi, Milli Ordu kaldırıldı, 12 bin Müslüman nüfus öldürüldü. Sovyetleşmenin ilk yıllarından başlayarak Ermeniler Rusların desteği ile diğer Azerbaycan toprakları gibi Gence topraklarına da iddia kaldırdılar. Onlar çeşitli bahaneler getirmekle Qara-çınar, Yeni-kend, Aşağı Ağcakend, Yukarı Ağcakend, Manaşid, Qaxtut, Buzluq, Xarxaput, Erkec, Boris (Ermeni), Boris (Rus), Gülistan, Sarısu (Türk) ve Gürzuler köylerini Dağlık Karabağ'a birleştirilmesi için hamileri olan merkez Moskova'dan talep ediyorlar. Fakat Gence halkının ve o dönemki Azerbaycan yöneticilerinin merkez Moskavaya esaslı delillerle keskin itirazı ve inadlı mücadelesi sonucunda buna nail olamadılar.

**Anahtar Kelimeler:** Sovyetleşme, İşğal, Sınır, Azerbaycan, Ermenistan, Gence

**ABSTRACT**
This article examines the political endeavours of the Socialist Republic of Armenia responsible for injustice decisions against the Azerbaijani territories including the Azerbaijani city of Ganja between the years of 1920 and 1930. It has been shown that the leadership of Cahangir Bay Kazimbeyov and the national military troops of Azerbaijan put forward the will of the Azerbaijani people against occupation

[*] Niğde Ömer Halisdemir Üniversiteti, İktisadi ve İdari Bilimler Fakültəsi, Siyaset Bilimi ve Uluslararası lişkiler bölümü, Siyasi elmlər doktoru, professor
e-mail: ibrahimova-gulzar@rambler.ru
[*] Məqalə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun 2013-cü ilində təsis edilmiş 2-ci Şuşa Qrand Layihəsi əsasında (EİF / MQM-2-Şuşa-2013-3 (9) -10 / 02/5-M-04) gerçəkləşmişdir.

by their resistance against the Bolshevik troops in April-May 1920. The main aim of the resistance groups, who carefully examined the strategic environment, the current balance of power and the military power of the rival troops, was to re-establish the national Azerbaijani state in Ganja. The Bolsheviks, however, did not allow this to occur and called for extra troops. Although the XI Army of the Bolsheviks lost 8,5 thousand troops, they succeeded to quash the rebellion of the Azerbaijani on May 31, 1920. Azerbaijani generals were executed by a Bolshevik firing squad on the island of Nargin, the National Army of Azerbaijan was abolished, and 12 thousand Muslims were killed. From the very outset of the Sovietization on, the Armenians raised territorial claims on Ganja by the help of the Russians, as like they did for other territories of Azerbaijan. By making use of different pretexts, the Armenians demanded the following villages to be incorporated into Nagorno-Karabakh from the Central Government of the Soviet Union in Moscow:Siyah-çınar, Yeni-kend, Aşağı Ağcakend, Yukarı Ağcakend, Manaşid, Qaxtut, Buzluq, Xarxaput, Erkec, Boris (Armenian), Boris (Russian), Gülistan, Sarısu (Turkish) and Gürzuler. However, the demands of the Armenians doomed to fail because the people of Ganja and the Azerbaijani rulers of that period opposed the demands strongly and provided solid documentary evidence to the Central Soviet Government proving that Ganja belongs to Azerbaijan. Consequently, Ganja remained Azerbaijani and thus the Armenians and the Soviet Government became unsuccessful in their quest.

**Key Words:** Sovietization, Occupation, Border, Azerbaijan, Armenia, Ganja

## GİRİŞ

1920-ci ilin aprelində sovetlərin Azərbaycanı işğal etməsilə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını gücləndi, bununla da XX əsrin 20-ci illərində iki sovet respublikası arasında sərhədlərin müəyyən edilməsində Ermənistanın Azərbaycana təcavüz hərəkətləri geniş xarakter alaraq kəskinləşdi.

Sovetləşmə ilə Azərbaycanın əraziləri ciddi şəkildə azalmağa başladı və bu ərazilərin ümumi sahəsi 86,6 min kvadrat kilometrə endirildi. Halbuki, 1918-1920-ci illərdə respublikanın ümumi sahəsi 113.895,97 kvadrat kilometr idi (Адрес-календарь Азербайджанской Республике,1920: 50) .

Bu dövr mərkəzin göstərişi ilə Azərbaycan qoşunlarının öz ərazilərindən geri çağrılması ermənilərin "niyyətlərinin" gerçəkləşməsinə bir dəstək idi. Çünki, sonunc olaraq ermənilər ordusu tərxis edilən Azərbaycanın ərazilərini ələ keçirir, həmin ərazilərdə yaşayan müsəlman əhalisini qətlə yetirirdilər. Buna qarşı etiraz edən N.Nərimanov[3] məsələ ilə bağlı V.Leninə yazırdı: "Müsavat hökuməti dövründə mübahisəsiz hesab olunan Azərbaycan əraziləri sovet hakimiyyətinin qələbəsindən sonra mübahisə subyekti olmağa başlamışdır. Şübhəsiz ki, xalq bunları görür və narazılığmı ifadə edir" (Azərbaycanda sovet quruculuğunun yekunları,1921:v.12; N.Nərimanovun V.İ.Leninə məktubu, 1921:v.41; B.Şahtatinskinin V.İ.Leninə məktubu,1920: v.6-7; Həsənli, 2012:155)

Məsələ ilə əlaqədar olaraq 1920-ci ilin aprel ayının 30-da Azərbaycan Xarici İşlər Nazirinin müavini M.D.Hüseynov tərəfindən Ermənistan Respublikasının Xarici İşlər Nazirliyinə nota göndərir.

Mayın 1-də erməni tərəfinə göndərilən digər teleqramda isə 24 saat ərzində qoşunlarını Sovet Azərbaycanının hüdudlarından kənarlaşdırılması və bu tələblərin ermənilər tərəfindən yerinə yetirilməyəcəyi təqdirdə Sovet Rusiyasına qarşı müharibə kimi qiymətləndiriləcəyi bildirilirdi. Növbəti gün isə erməni tərəfi telqramı belə cavablandırır ki, Azərbaycanın ərazisində erməni qoşunları yoxdur və əksinə, Azərbaycanın müsavat-bəy hökumətinin qoşunlarının hələ də Qarabağın ermənilər olan hisəsini azərbaycanlı hakimiyyətlərinə zorla itaət etmək məqsədi ilə incidirlər ( №687, Бюллетень № 7, 1920:63).

9 may 1920-ci ildə Azərbaycan hökuməti Ermənistan hökumətinə müraciət edərək təklif edir ki, 1920-ci il mayın 15-dən gec olmayaraq mübahisəli ərazilərlə bağlı danışıqlara başlasınlar (ARPİİSSA: F.1, siy.2, iş.25: v. 18-20). Erməni hökuməti özünün cavab notasında Qarabağ, Zəngəzur və Naxçıvan torpaqlarını öz ərazisi olaraq göstərərək bu təklifi rədd edir (ARPİİ SSA, F.276, siy.9, iş.30:v. 11; ARPİİ SSA, F.276, siy.9, iş.61:v. 31).

[3] Azərbaycan İnqilab Komitəsinin sədri

**Ermənistan-Azərbaycan münaqişəsinin sovet hakimiyyəti tərəfindən həll olunmasına dair ilk cəhd**lər

1920-ci ilin may ayında Ermənistan Sovet Rusiyasından Azərbaycanla olan mübahisəli məsələlərin həllində vasitəçi olmasını xahiş edir. L.Qaraxan[4] Sovet Rusiyasının və Azərbaycan hökumətinin adından cavab verir ki, "qarşılıqlı milli qırğınlardan qaçmaq üçün mübahisəli ərazi məsələləri həll edilənə qədər, həmin mübahisəli yerlər Qırmızı rus Ordusu tərəfindən tutulacaq. Bu barədə artıq rus hərbi komandanlığına əmr verilmişdir" (L.Qaraxanın Ermənistan Xarici İşlər Komissarına teleqramı. 15.05.1920: v.100)

15 may 1920-ci ildə məsələ ilə əlaqədar L. Qaraxan M. D.Hüseynova[5] teleqram göndərir. Artıq bu teleqramda erməni hökumətinin Rusiya hökumətinə müraciət edərək Azərbaycanla Ermənistan arasında vasitəçi olmasını istədiyini və Sovet Rusiyasının da bunu qəbul edərək mübahisəli ərazilərdə Qırmızı Ordunun hərbi qüvvələrinin yerləşdirilməsinə qərar verdiyi bildirilirdi (ARDA: F.28 c, siy.1c, iş.99: 96). Yəni, Azərbaycanın xəbəri olmadan artıq Rusiya və Ermənistan öz aralarında məsələ ilə bağlı razılığa gəlmişdilər. 1920-ci ilin may-iyun aylarında aparılmış danışıqların nəticəsində Ermənistanda Sovet Rusiyasının tanınması və sülh müqaviləsinin imzalanması ilə bağlı razılıq əldə olunur (Musayev, 1996: 244). Eyni zamanda S. Kirov[6] tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin sovet hakimiyyəti tərəfindən həll olunmasına dair ilk cəhd edilir. 2 iyunda Qazaxda hər hər iki dövlət arasında olan bütün mübahisəli məsələlərin həll olunmasına dair Ermənistan-Azərbaycan konfransının keçirilməsi üzrə razılıq əldə olunur. Lakin, Ermənistan nizami qüvvələrinin Naxçıvan bölgəsi və Qazax qəzasına hücumları nəticəsində münaqişənin sülh yolu ilə həll edilməsi cəhdi uğursuzluqla nəticələnir (ARPİİ SSA, F. 276, siy.9, iş.62: 7).

**Sovetləşmə prosesi və mübahisəsiz ərazilərin mübahisələi ərazilərə çevrilməsi**

1920-ci il iyulun 2-də N.Nərimanovun və M.D.Hüseynovun imzası ilə "Azərbaycan SSR-nin Ermənistan Respublikası ilə mübahisəsiz ərazilərinin sərhədlərinin təsviri" adlı sənəd hazırlanıb Moskvaya göndərilir. Sənəddə göstərilirdi ki, Azərbaycanın Ermənistanla mübahisəsiz olan sərhədləri köhnə inzibati bölgü üzrə tam təsvir edilir (Azərbaycan Sovet Sosialist Respublikasının Ermənistan Respublikası ilə mübahisəsiz ərazilərinin sərhədlərinin təsviri, 1920: v.15-16; ARDA: F.28 c, siy.1c, iş.53: 12; ARPİİ SSA: F.276, siy.5, iş.1: 5).

Ermənistanla müqavilə imzalanarkən, Azərbaycan rəsmiləri tərəfindən əvvəlcədən Moskvaya göndərilmiş və tərəflər arasında sərhəd xəttini özündə ehtiva edən bu sənədə mərkəz tərəfindən heç bir əhəmiyyət verilmədi. Nəticədə Azərbaycanın Sovet Rusiyasının dəstəyi ilə ADR dövründə mübahisəsiz sayılan torpaqlarının da itirilməsi davam etməkdə idi.

Nəhayət, mübahisəli sayılan ərazilərlə bağlı G.Çiçerin öz təklifiərinin bir hissəsini rəsmiləşdirə bildi və Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasma göndərdiyi 7 iyul 1920-ci il təlimatında o, Mərkəzi Komitə adından bildirdi ki, Ermənistanla Azərbaycan arasında mübahisəli sayılan ərazilərə heç bir Azərbaycan və ya erməni hakimiyyət orqanları buraxıla bilməz (Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasına təlimat,1920: v.7). Mübahisəli elan olunan ərazilər Azərbaycan əraziləri olduğundan və Azərbaycan hakimiyyət orqanlarının nəzarətində olduğundan, bu qərar Azərbaycanın suveren hüquqlarına və ərazi bütövlüyünə kobud şəkildə müdaxilənin davamı idi. Lakin bu proses təkcə ermənilərin "mübahisəsiz" əraziləri "mübahisəli" elan edtməklə sərhədləri daxilinə salmaqla bitmirdi. Onlar Azərbaycan sərhədləri daxilində yerləşdikləri ərazilərdə "aztorpaqlılıq" bəhanəsi ilə daha çox torpaqlar əldə etmək və sonra da bu və ya digər yolla həmin ərazilərin Ermənistana, eləcə də Dağlıq Qrabağa, Dağlıq Qarabağın özünü də Ermənistana birləşdirmək niyyətli işğalçı siyasətlərini yürütməkdə davam edirdilər.

Zaq.MİK-in 30 yanvar 1924-cü il sərəncamına əsaslanaraq "ZSFRİ-in tərkibinə daxil olan respublikalar arasında torpaq, meşə və sudan istifadə üzrə mübahisələrin həllinə dair komissiya" yaradılır. Sonralar adı dəyişdililir və "Zaqfederasiya respublikaları arasında torpaq, meşə və su mübahisələrinin həlli və

[4] RSFSR Xarici İşlər Komissarı müavini
[5] Azərbaycan SSR-in Xaricİ üzrə Xalq Komissarı
[6] R K (b) P MK-nın Qafqaz bürosunun üzvü; Azərbaycan SSR Kommunist (bolşeviklər) Partiyasının Birinci Katibi(1921-1925)

onun ərazisində otlaq yerləri məsələsinin nizamlanması üzrə komissiya" adlanır. Sənədə görə bu komissiya ZaqMİK-in nəzdində təşkil olunmalı idi və Zaq.MİK-in üzvü və ya onun üzvlüyünə namizədlərdən seçilən sədr və 4 nəfər üzv bu komissiyaya daxil idi. Komissiyanın yanında əməkdaş sifəti ilə məsləhətçi, yer quruluşu mütəxəssisi, çertyojçu vardı. Komissiyanın sədr və üzvlərini ZaqMİK-in sədri, digər əməkdaşları isə komissiya təyin edirdi.

Bu komissiyanın əsas vəzifəsi Zaqfederasiya respublikaları arasında inzibati sərhədlərin təyin edilməsindən, sərhəd yerlərində torpaq, meşə və sudan istifadədə onlar arasında doğan mübahisəli məsələlərin nizamlanmasından ibarət idi. Bundan başqa bütün Zaqfederasiyanın ərazisində otlaq yerləri məsələsinin nizamlanması, bütünlükdə ayrı-ayrı respublikaların maldarlıq təsərrüfatlarının maraqlarının razılaşdırılması və uyğunlaşdırılması, maldarlığın köçəri formasının əkinçilik və düzən (alp) təsərrüfatına keçməklə ləğv edilməsi üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsi də komissiyanın vəzifəsinə daxil idi. Sənədə görə komissiya yuxarıda sadalanan vəzifələri həyata keçirmək üçün ardıcıllıq gözlənilməklə bəndlərdə yazılanları yerinə yetirməli idi. Biz həmin bəndlərin bir neçəsinə diqqət yetirək:

- *Torpaq, meşə və sudan istifadə məsələsində respublikalar arasında mübahisələrin ortaya çıxdığı təqdirdə, mübahisələn həlli üzrə komissiya onu yerli komissiyalar vasitəsilə hərtərəfli araşdırır, mübahisənin həlli üçün gərəkli olan bütün sənədli və kartografiq materialı toplayır*;
- *Yerli araşdırmaların sonunda materiallar toplandıqdan sonra Komissiyanın yaxın içlasında mübahisəli işə baxılır, iclasa mubahisə edən respublikaların həlledici səsvermə huququna malik, hər respublikadan bir nəfər olmaqla səlahiyyətli nümayəndəsi dəvət olunur;*
- *Komissiyanın qərarı Zaq.MİK-in kiçik Prezidiumuna təqdim olunur və yalnız onun sanksiyasından sonra qüvvəyə minmiş olur. Fikirayrılığı olduğu təqdirdə, eləcə də respublika nümayəndələri tərəfindən xüsusi fikir təqdim olunduqda, komissiyanın qərarı iki həftə müddət ərzində Zaq.MİK-in böyük Prezidiumuna baxılması və təqdiqi üçün təqdim olunur. Bu iclasda maraqlı respublikaların nümayəndələrinin iştirakı vacibdir və Böyük Preziudumun qərarı qəti sayılır;*
- *Otlaq yerlərinin nizamlanması məsələsi sahəsində komissiya bir respublikanın tərkibində olub, digər respublikanın maldarları tərəfindən istifadə olunan otlaq sahələrinin məkanı və sərhədlərinə dair respublikalar arasında olan mübahisələrə baxır və həll edirdi. Bundan başqa Zaqfederasiyanın maldar əhalisinin köçəri və yarımköçəri həyat tərzindən əkinçilik və düzən təsərrüfatına tədricən keçilməsini nəzərdə tutan tədbirlərin qəbul edilməsi və respublika Torpaq Xalq Komissarlarının ZFSRİ-nın dövlət planının hazırlanması üçün gərəkli olan məlumat və materialların hazırlanması da hazırlıq işlərinə komissiya rəhbərlik etməli idi;*
- *Komissiyanın daha öncə saydığımız məsələlər üzrə içlasında iştirak üçün maraqlı respublikaların həlledici səs huququna malik səlahiyyətli nümayəndələri dəvət olunur; (Çox vaxt Azərbaycan tərəfi dəvət olunmadan bu iclaslar keçirilirdi-G.İ.)*
- *Komissiya ZSFRİ-nın bütün müəssisələri ilə birbaşa əlaqə saxlamaq hüqüquna malikdir, ZSSRİ-dən kənarda yerləşən təşkilat və vəzifəli şəxslərlə əlaqə Zaq.MİK vasitəsilə həyata keçirilir….* (Fond 2502, siy. 2, iş 26, v.21-22)

Yardalmış Komissiya haqqında Əsasnamənin tətbiqi üzrə təlimatın birinci hissəsində Zaqfederasiyanın bütün ərazisində otlaq yerləri məsələsinin nizamlanması Zaqfederasiyanın bütünlükdə ayrı-ayrı respublikalarının maldarlıq təsərrüfatlarının maraqlarının razılaşdırılması və uyğunlaşdırılması və mal-darlığın köçəri formasının ləğv edilməsi və əkinçilik və düzən təsərrüfatına tədricən keçilməsinə dair tədbirlərin tərtibi və həyata keçirilməsi nəzərdə tutulurdu. Üçüncü hissədə də göstərilirdi ki, mübahisəli ərazilərlə bağlı məsələnin həll edilməsində mübahisə edən tərəflərin torpaqlarına, rayonun həm topoqrafiq, həm etnoqrafik şəraitini nəzərə almaqla eyni səviyyədə dəyərləndirilməsinin aparılmasıdır. 3 bənddən ibarət dördüncü hissədə otlaq yerlərinin nizamlanması məsələsi yer alırdı. Burada əsas diqqəti cəlb edən məsələ komissiyanın ümumilikdə qonşu respublikanın maldar əhalisinin istifadəsinə belə otlaq yerlərinin verilməsinə dair məsələlərin baxılmasını qəbul edir. Təqdim olunan respublikanın otlaq yerlərinin ayrı-ayrı maldar qruplar (kənd və torpaq icmalari, digər kənd təsərrüfatı birlikləri) arasında bölünməsi isə bu respublikaların hökümətlərinin vəzifəsi hesab olunurdu. Təəsüf ki, Azərbaycanla bağlı məsələlərdə bu sənəddə yazılanlar yerinə yetirilmirdi, belə ki, yaradılan komissiya üzvləri qeyri millətlərdən ibarət olur, ZSSRİ-dən kənarda yerləşən təşkilat və vəzifəli şəxslərlə əlaqə Zaq.MİK

vasitəsilə həyata keçirilməsi göstərilsə də, ermənilərin torpaq məsələsilə bağlı Moskavaya fərdi müraciətləri əsasında mərkəzin Azərbaycan ünvanlanan sorğu-sualları, təftişləri, təzyiqləri və tələbləri bitmirdi. Bütün hallarda hədəf Azərbaycan ərazilərində ermənilər daha çox torpaq verilməsinə istiqamətlənmişdi. Mübahisələi məsələlə böyük əksəriyyətlə ermənilərin xeyrinə həll olunurdu. Bunu Azərbaycan rəsmiləri dəfələrlə etiraf etmişdi. Az.MİK-in 30 noyabr 1925-ci il Ağamalıoğlunun sədrlik etditi iclasda bu fikirlər səslənməkdə idi: "Azərbaycanda sərhədlə bağlı torpaq məsələlərinə az yer ayrılması və az diqqət göstərilməsi və Zaq.MİK-dəki Azərbaycan nümayəndələrinin təsadüfü seçilməsi səbəbindən bu məsələdə mübahisələrin həlli qənaətbəxş olmur, odur ki, aşağıdakıların zəruri ollmasını etiraf etmək lazımdır: Bağırov, Bünyadzadə və Şahbazidən ibarət üçlük yaradılsın" (F.607, siy.1, iş 544:.59; F. 379, siy 5, iş 234:31).Təbbi ki, əks halda qeyri millətlərin torpaqlarımızla bağlı bizi təmsil edərək verdiyi səslərin nəticəsində ərazilərimizi itrilməkdə davam edirdi.

**Gəncə ermənilərin işğalçılıq iddialarında**

Sovetlərin Azərbaycanı işğalına müqavimət göstərən bölgələrdən biri də Gəncə qəzası idi. Cahangir bəy Kazımbəyovun liderliyi ilə Azərbaycan Milli Hərbi Birliklərinin Gəncədə 1920-ci ilin aprel-may aylarında Azərbaycanın bolşeviklər tərəfindən işğalına qarşı ciddi müqaviməti mərkəz qarşısında ərazilərinin tutulması ilə razılaşmayan bir xalqın iradəsini ortaya qoymuşdur. Strateji mühiti, mövcud qüvvələr balansını və xüsusilə qarşı tərəfin hərbi vəziyyətini diqqətlə öyrənən üsyançıların məqsədi Gəncədə yeniden Milli Azərbaycan dövlətini qurmaq idi. Lakin bolşeviklər heş bir halda buna yol vermədilər və əlavə qüvvələr çağırmaqla XI Qızıl Ordu əsgərləri 8500 əsgərini itirsə də 31 mayda üsyanı yatıra bildi. Azərbaycan generalları Nargin adasında güllələndi, Milli Ordu ləgv edildi, 12 min müsəlman əhali öldürüldü. Azərbaycanın digər əraziləri kimi Gəncə də işğal olundu.

1923-cü ildən başlanan torpaq quruculuğu işləri Gəncə də müəyyən ziddiyyətlərlə davam etməkdə idi. Torpaq əhalinin gündəmində duran əsas məsələlərdən idi. Arxiv sənədlərində torpaq quruculuğuna başlandıqdan etibarən (1923-cü ildən) Gəncə qəzasında ümumi vəziyyəti əks etdirən məlumatlar geniş yer alır. Məsələn, Gəncə qəzası Yuxarı Ağcakənd sakinlərinin ərizəsi ilə bağlı məruzədə vəziyyət sətiraltı olaraq AXC dövrü ilə müqayisəli verilir. Sovetlərin ilk gündən başlayaraq AXC-nin yaratdığı yaxşı nə varsa, onu ya qəsdən dağıtdığı, ya da mənimsəyərək öz adına çıxması məruzədə aydın hiss olunur. Göstərilir ki, adları çəkilən kəndlərdə 11068 nəfər (digər sənədlərdə bu rəqəm ayrı-ayrılıqda götürülmüş kəndlər üzrə hesablandıqda 10763 nəfərdir-İ.G.) əhali yaşayır. Qara-çinar, Yeni-kənd, Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Manaşid, Qaxtut, Buzluq, Xarxaput, Erkeç, Boris (erməni), Boris (rus), Gülüstan, Sarısu (türk) Gürzulər. Gülüstan və Boris (rus) istisna olmaqla türk əhalinin torpaqları qayalıqlardan ibarətdir, dağıntılar var. Torpağın əsas məsələ olduğu bildirilir və etiraz dolu bir ifadə ilə yazılır "İnqilab kəndlilərə torpağı (məlumdur ki, işğal səbəbilə AXC dövründə torpaqla bağlı məsələ sona çatdırıla bilməmişdi-İ.G.) qaytardı, amma bu kəndlilərə heçnə vermədi, əksinə onların faktiki istifadəsində olan torpaqları ixtisar etdi. Məsələn, inqilaba qədər onlar istifadsəində olan pay torpaqlarından əlavə Cəmilli, Səfikürd bəylərinin torpaqlarından icarə müqavilələsilə də istifadə edirdilər" (F.1, iş74, siy 148, q.34: 88).

| İnqilaba qədər adamşbaşı düşən torpaq sahəsi Boris (erməni) | Yuxarı Ağcakənd | Aşağı Ağcakənd | Manaşid | Qara-çinar | Yeni-kənd | Qaxtut | Buzluq- | Xarxaput | Erkeç | Gülüstan | Boris(rus) | Sarısu | Gürzulər |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 0,91 des | 0,77 des | 0,78 des | 0,71 des | 0,3 des | 0,79 des | 0,5 des | 1,16 des | 0,64 des | 1,21 des | 1,04 des | 1,35 des | 0,99 des | 0,99 des |

Orta hesabla adambaşı 0,82 des. düşür ki, 0,18 des. çatmır (F.1, iş74, siy 148, q.34: 88).

1 iyul, 1925 RK(b)P Siyasi Bürosuna M.Mensmulov tərəfindən bildirilir ki, Yazda Gəncə qəzası 9-cu hissənin 150 nəfər rayon soveti üzvləri SSSR-i və Zaq.MİK-lərinə Kalinin, Enukidze, Nərimaniov, Ter-Qabreyan və Zaq.MİK-in sədri Tsaxakayaya müraciət ediblər. Əslində onların SSSRİ MİK-nə müraciəti yuxarıda qeyd edilən komissyanın əsasnaməsinə zidd idi, çünki əsasnaməyə görə ZSSRİ-dən kənarda yerləşən təşkilat və vəzifəli şəxslərlə əlaqə Zaq.MİK vasitəsilə həyata keçirilir. Müraciətdə Qaraçinarda 1200 nəfər, Yengikənddə 650, Qaxtutda 240, Xarxaputda 540, Aşağı Ağcakənddə 1350, Yuxarı Ağcakənddə1895, Gülüstanda 665, Buzluqda 540, Manaşiddə 850, Biryusda 1533 və Erkeçdə 1300 kəndlinin çətin bir iqtisadi vəziyyətə düşərək, qonşu türklərin (azərbaycanlıların) çöl işlərini görməyə məcbur olması göstərilir. Qeyd edirlər ki, Çar dövründə həm erməni, həmdə türk kəndliləri bəylər və mülkədarlar tərəfindən istismar olunurdular (Burada AXC dövründə bu torpaqların sahibi türklər olmasına tamamilə toxunulmur-G.İ.) Onlara görə sovet quruculuğu dövründə isə türk kəndliləri bu varlı torpaqları zəbt etməklə xan və bəyləri əvəz edib, onları istismar edir. Dağlıq zolağın kəndliləri öz təsərrüfatlarını heyvandarlıq əsasında inkişaf etdirə bilərlər, amma onlar 100% dağ otlaqlarının və 100% yaylaqların türk əhaliyə verilməsi üzündən bundan məhrumdurlar. Yayda türklər ailələri ilə yaylağa qalxır və qaniçən mülkədarları ilə yerləşirlər, ermənilər isə torpaqsız qalır və onlara işləməli olurlar (F.3316, siy. 13, iş 249, s. 212). Əslində, sovetləşmənin bu illərində mülkədarların torpaqları əlindən alınanda, erməni daşnaklara bəlkə də güzəşt edilirdisə də, azərbaycan türklərinə heç bir güzəşt edilmirdi, əsil qaniçən onlar idi. Sonda isə əsas hədəflərini belə ifadə edirdilər: "bu vəziyyəti nəzərə alaraq, qeyd olunan kəndlərin Dağlıq Qarabağa birləşdirilməsini xahiş edirik" (F.3316, siy. 13, iş 249: 212).

Ermənilərin havadarlarından olan SSSR MİK-in Rəyasət heyətinin katibi A.S. Yenukidze 23 oktyabr 1925-ci ildə Zaq.MİK və Az.MİK-ə bu vəsatətə diqqət yetirilməsini və təcili münasibət bildirilməsini tələb edir (F.3316, siy. 13, iş 249: 215) Moskva çox böyük canfəşanlıqla məsələni nəzarətə götürür.

12 noyabr 1925 –ci il tarixdə MİK SSSR Rayonlaşma Komissiyası Prezidiumunun üzvü Yeqerov Gəncə qəzasının bir neçə kəndinin (Qaraçinar, Yengikənd, Qaxtut, Xarxaput, Aşağı Ağcakənd, Yuxarı Ağcakənd, Gülüstan, Buzluq, Manaşid, Boris və Erker) DQMV-nə birləşdirilməsinə baxılmasını xahiş edir (F.3316, siy. 13, iş 249: 200).

18 noyabrda isə SSSR-i MİK-Rəyasət heyətinin katib müdürü Çerlyunçakeviç Zaq.MİK və Az.MİK-dən təkrar olaraq bu kəndlərin Dağlıq Qarabağa birləşdirilməsinin yerinə yetirlməsini soruşur (F.3316, siy. 13, iş 249, : 216). 3 gün sonra isə Tiflisə Zaq.MİK-ə SSSR-i MİK-Rəyasət heyətinin katib müdürü Çerlyunçakeviçin imzası ilə vurulan telqramda yazılırdı ki, Cəncə qəzasının bir neçə kəndinin DQMV-nə birləşdirilməsi məsələsinə göstərilən ikili münasıbətlə bağlı SSSR-i.MİK-in Rəyasət Heyətinin katibliyinə təcili olaraq cavab verilsin (F.3316, siy. 13, iş 249:217).

25 noyabr 1925-ci il tarixində SSSR-i.MİK-in Rəyasət Heyətinin katibliyinə Az.MİK-in Rəyasət Heyətinin katib müavini Axundovun imzası ilə məlumat verilir ki, Qaraçinar, Yengikənd, Gülüstan və Gəncə qəzasının digər kəndlərinin DQMV-nə birləşdirilməsi məsələsi ilə bağlı xüsusi komissiya yaradılıb və bütün kəndlərə gedilib, məsələ həllolma mərhələsindədir (F.3316, siy. 13, iş 249: 220)

Bir neçə gün sonra 3 dekabr 1925-ci ildə Zaq.MİK-n İşlər İdarəsi müdiri Şaverdovun Moskvaya vurduğu cavab teleqramında bildirilir ki, Cəncə qəzasının bir neçə kəndinin DQMV-nə birləşdirilməsi məsələsinə müvafiq orqanlarda baxılır və nəticə olan kimi məlumat veriləcək (F.3316, siy. 13, iş 249: 218).

5 gün sonra yenidən SSSR-i.MİK-in Rəyasət Heyətinin katibliyinə Zaq.MİK-n İşlər idarəsinin müdiri M.Şatirov və Ümumi şöbənin müdiri M.Parsacanov tərəfindən onların 18 noyabr 323.1/43 saylı vəsatətinə cavab olaraq bildirilir ki, ASSR Cəncə qəzasının bir neçə kəndinin DQMV-nə birləşdirilməsi məsələsi müvafiq orqnlarda icazə prosesindədir və qeyd edilən məsələnin icazəsi başa çtan kimi əlavə xəbər veriləcəyi göstərilir (F.3316, siy. 13, iş 249: 222). Yazışmalardan gpründüyü kimi, mərkəz Moskva məsələnin ermənilərin istəyinə uyğun həlli üçün Azərbaycan rəsmilərinə davamlı təzyiq göstərir.

9 yanvar 1926 SSSR MİK-ə Az.MİK-in sədri Ağamalıoğlu və katibi T.Şahbazi, adları çəkilən kəndlərin iqtisadi durumunu yaxşılaşdırmaq məqsədilə ASSR hökuməti Gəncə qəzasında yaradılmış xüsusi komissiyanın araşdırma nəticələrinə görə torpağın istifadəsi, suvarılması, meşə materialları ilə təmin

edilməsi və tibbi yardımın düzgün təşkili və s. bu kimi məsələlərin həllinə aid bir sıra ölçülər götrülməsi ilə bağlı məlumat verir.

Xüsusilə həyata keçrilməsi üçün aşağıdakı praktik təkliflərin edildiyi gğstərilir. ASSR-in XK-na:

a) Torpaq və otlaq məsələlərinin tənzimlənməsini 1 mart 1926-cı ilədək qonşu torpaq sahələrinin dağlıq hissəsi Xanqərvənd və Qand qəzası kimi, Kazyan və Cəmirli Ağdam qəzası kimi vahid torpaq normasının müəyyən edilməsi;
b) 1 fevraladək Qand qəzasında köçərilərin hərəkətlərini əvvəlcədən təyin olunmuş yolla tənzimlənməsi;
c) 15 dekabr 1926-ci ilədək Yuxarı Ağcakənd kəndində 600 evin tikilməsi üçün erməniləri meşə materialı ilə təmin edilməsi;
d) kasıb əhali üçün meşədən pulsuz odun qırıntılarının buraxılması;
e) kəndlilərdən meşə cərimələrinin ləğv edilməsi.

Azərbaycan Su Təsərrüfatına təcili olaraq Yuxarı Ağcakənddə su məsələsini təcili nizamlanmasına, Azərbaycan Kənd Təsərrüfatı Trestinə Aşağı Ağcakənddə meşə emalı zavodunun tikilməsinin mümkünlüyünü aydınlaşdırmaq, Azərbaycan Kənd Təsərrüfat Bankına və Keybirliyinə Qaraçinar kredit cəmiyyətini müstəsna hal kimi, işçi malqaranın əldə edilməsi üçün nəqd pulun yönəldilməsilə material və kənd təsərrüfat vasitələri ilə gücləndirmək, Gəncə qəza İK və ASSR Xalq Maliyyə Komissarı müvəkkilinə büdcəyə Gəncə qəzasının erməni kəndlərində 2 yeni məktəbin tikilməsi ilə bağlı xərclərin salınması və qəzanın dağlıq hissəsində yerləşən məktəblərin təmirinə sosial məbləğin ayrılması, Qəza Xalq Maliyyə komissarı müvəkkilinə 1925-1926–cı ilin yerli büdcəsinə Qaraçinar kəndində 10 çarpayılıq və 1 mamaçalıq xəstəxananın açılması xərclərinin salınması, Gəncə Qəza İK XIII partiya konfransının milli məsələ ilə bağlı göstərişlərini rəhbər tutaraq ermənilərin qəzanın şəxsi və təsərrüfat aparatına cəlb edilməsinin gücləndirilməsi təklif edilir.

Göstərilənlərlə bağlı hökumət Gəncə qəzasının yuxarıda göstərilən kəndlərinin sakinlərinin iqtisadi vəziyyətinin yaxşılaşdırılması ilə bağlı digər tədbirlər də həyata keçirildiyi qeyd olunur. Az.MİK adı çəkilən kəndlərin erməni əhalisi ilə birlikdə ASSR-dən ayrılmasına məsələsinə gəldikdə isə SSSR MİK-ə qəti etirazını bildirir (F.3316, siy. 13, iş 249: 223)

Ermənilərin köçürülməklə üstünlük təşkil etdiyi dağlıq ərazilərə daha çox torpaq verilməsinə baxmayaraq AKP MK-nın Rəyasət Heyətinə də Mirzəbekyanın Gəncə qəzasındakı erməni kəndlilərinin torpaq ehtiyacları ilə bağlı məktubu daxil olurr. Mirzəbekyanın bu məktubuna D.Bünyadzadənin AKP(b)MK-nın Rəyasət Heyətinə 7 oktyabr 1926-cı il tarixli cavabında əvvlcə milli qruplar, onların təsərrüfatları və yaşayış məntəqələrinin say nisbətini, daha sonra isə torpaq istifadəçiliyinin mövcud durumu, nöqsanlar və onların söykəndiyi əsaslar izah edilir.

***Milli qruplar, onların təsərrüfat və yaşayış məntəqələrinin say nisbəti***

Bu məsələni açıqlamaq üçün göstərilir ki, bəhs edilən dövrdə bütövlükdə Gəncə qəzasında 235 dən çox kənd vahidi var. 201 torpaq cəmiyyətində məskunlaşan, 18.898 həyətyanı-təsərrüfata malik kənd əhalisinin sayı 94214 nəfərdir. Dağlıq ərazidə 70 torpaq cəmiyyətində məskunlaşmış 45.000 kəndli əhali vardır, onlar 9307 həyətyanı təsərrüfata malikdirlər. Milli əlamətə görə ermənilər 32600 nəfərdir və ya dağlıq ərazidəki kəndlilərin 70 % təşkil edirlər. Onlar 30 dənə torpaq cəmiyyətində birləşiblər, ixtiyarlarında 6620 həyətyanı-təsərrüfat vardır. Türklər 11300 nəfər və ya 25 %-dir, onlar 37 dənə torpaq cəmiyyətində birləşiblər, ixtiyarlarında 2444 həyətyanı-təsərrüfat vardır.

Dağlıq ərazidə digər çox az olan kəndli qrupunu ruslar və isveçrəlilər təşkil edir.
Aran hissədə 50 minə qədər kənd əhalisi vardır, onlar 133 torpaq cəmiyyətində birləşmiş və 9591 həyətyanı təsərrüfata malikdirlər. Milli əlamətə görə ermənilər 1400 nəfərdir, onlar 3 dənə torpaq cəmiyyətində birləşmiş və 332 həyətyanı təsərrüfata malikdirlər. Türklər 47000 nəfərdirlər, onlar 49 torpaq cəmiyyətində birləşiblər, 8845 həyətyanı təsərrüfatları vardır və ən nəhayət 1 koloniyada cəmləşdirilmiş 414 alman həyəti mövcuddur.Aparılan müqayisəli təhlillərdən aşağıdakı nəticə alınır:

- Gəncə qəzasınnın dağlıq hissəsində əhalisinə və təsərrüfat sayına görə ermənilər üstünlük təşkil edir, ikinci yerdə türklər (azərbaycanlılar), sonra isə digərləri gəlir (ruslar və isveçrəlilər, almanlar).

- Erməni kəndliləri saylarına və təsərrüfatlarına görə digər qruplardan çoxdurlar, yaşayış məntəqələrinin sayına görə isə türk əhalisindən geri qalırlar. Bu onunla izah olunur ki, ermənilər türklərdən daha sıx yaşayırlar. 2 əsas qrupun faiz nisbəti onların həyətyanı-təsərrüfatları ilə tam mütənasiblik təşkil edir (F.1, siy. 74, s.v. 198:1).

***Torpaq istifadəçiliyi***

Göstərilir ki, Gəncə qəzasında olan bütün torpaqlar yararlı, yararsız, meşə və s. 196825 desyatindir: suvarılan 71935 des., suvarılmayan 23641 des., otlaq 101228 des. Əsas məsələ böyük torpaq massivlərin necə və harada yerləşməsidir. Məlumdur ki, coğrafi baxımdan dağlıq və aran hissə fərqli iqlim, su və digər xüsusiyyətlərilə xarakterizə olunur. Aran hissədə yay vaxtı güclü istilər olur və malyariya yayılır buna görə də ilin bu vaxtı burada sahə işlərini aparmaq, eləcə də yaşamaq belə mümkün olmur, dağlıq ərazidə isə bunun tam əksini müşahidə edilir. Gəncə qəzasında ikinci əsas xüsusiyyət bütün suvarılan torpaqların aranda, suvarılmayanlar isə dağlıq ərazidə yerləşməsidir. Eləcə də qış otlaqları və meşələrin böyük əksəriyyəti dağlıq ərazidə yerləşmiş, qışlaqçılar isə aranda məskunlaşmışdır. Maldarlıq ən çox aranda yayılmasına baxmayaraq kəndyanı örüş sahələri 60-65% dağlıq ərazidədir. Qəzanın aran və dağlıq rayonları arasında əhali sıxlığı bu rayonlarda olan yararlı torpaqlarla əks proporsionallıq təşkil edir. İqtisadi cəhətdən bu iki rayon sıx bağlıdırlar və bir-birindən tam asılı vəziyyətdədirlər (F.1, siy. 74, s.v. 198:2)

**İnqilaba qədər və torpaq quruculuğundan sonra torpaq istifadəçiliyi**

| | İnqilaba qədər (des.) | | | Torpaq quruculuğundan sonra (des.) | | | |
|---|---|---|---|---|---|---|---|
| | suvarılan | yararlı suvarılmayan | örüş | suvarılan | yararlı suvarılmayan | örüş | əhali |
| Dağlıq | 5.390 | 34.421 | 60000 | | 23,641 | 60000 | 45000 |
| Aran | 66.575 | 133.130 | 40000 | 71,955 | 145000 | 40000 | 50000 |

Bu torpaqların sayını nüfuzlara böldükdə orta faktiki rəqəm dağlıq ərazi üçün 0,76 des., aran üçün isə 2,7 des. suvarılmayan vahid təşkil edir (F.1, , siy. 74, s.v. 198:2).

Yuxarıda qeyd edilən bir sıra təbii-tarixi və iqtisadi xarakterli xüsusiyyətlər Gəncə qəzasında torpaq paylaşdırılması zamanı bütün qəza üçün vahid qəza normasının müəyyənləşdirilməsinə imkan verməmişdir. 1923-cü ildə torpaq paylaşdırılması işləri zamanı kəndlilərin razılığı nəzərə alınmamış, gərəkli vasitələri təsərrüfat verə bilməmişdir. Torpaqların mükəmməl həlli məsələsi köçürülmə və məskunlaşma, yaşayış məntəqələrinin sıxlığı kimi bir sıra amillərlə bağlıdır. Bunları nəzərə almadan bütöv qəza miqyasında məsələnin kökündən həlli mümkün deyil. Odur ki, Az.MİK-in Rəyasət heyətinin 12 dekabr 1925-cil iclasında Şahbazovun məruzəsi əsasında praktik təkliflərdə qeyd olunur ki, düzən mədəniyyətinə keçidə torpaq məsələsi kimi baxılmalıdır,... müvafiq melioriativ və torpaq quruluşu işləri aparılmadan qış otlaq sahələrinə hazırlıq və yay otlaq sahələrinin mexaniki bağlanması Azərbaycanda 40% təşkil edən köçəri və yarı köçəri əhalinin tədricən məhvinə gətirib çıxarır, bunu SSRİ-nin düzən mədəniyyətinə (Eşşək-Meydan) vaxtından əvvəl, birtərəfli, təcridli keçid olduğunu etiraf etmək lazımdır (f.607, siy.1, iş 544:.59; f.379 siy3, iş 426:.38-59; f.379 siy1, iş 7544: 43 arx.) Məlumdur ki, Eşşək Meydan otlağından çox qədim zamanlardan Qazax və Şəmkir maldarları istifadəsində olub Azərbaycan torpağıdır (1927-ci ildən Dilcan qəzasındadır). 1923-cü ildə bu otlaq 113752,3 des. ibarət idi. Aztorpaqlı qəza (Dilcan) əhalisinə 1923-də 18946,3 des. və 1924-də 7971 des. verilib, yerdə qalan 86835 des. otlaq sahəsi olaraq paylanmağa saxlanıb (f.607, siy.1, iş 544: 43; F. 379, siy 5, iş 234:31 arx.). Eşşək-Meydan otlaq sahəsindən Azərbaycanın istifadə etməməsi üşün Torpaq Komissiyasının müvəkkili Koçetkov ermənilərin mövqeyindən çıxış edərək Zaq.MİK-in sədri Kasyana müraciət edir. Belə bir səbəb gətrirlər ki, mal-qara otu yeyəcək, təbiətin faunası pozulacaq. 12 oktyabr 1925-ci ildə bu komissiyanın məruzəsi əsasında Zaq.MİK-in Rəyasət Heyəti qərar alır: Qazax maldarlarının istifadəsində olan 3834 des. Eşşək- Meydan otlaq sahəsi Ermənistanın "çiçəklənməsi" naminə Ermənistan dövlət fonduna verilsin (F.607, siy.1, iş 544: 40,52; F.2502, siy2, iş 26; F.379 siy3, iş 426:10).

Torpaqların bərabərləşdirilməsi üçün torpaqların paylaşdırılması zamanı aran rayonundan dağlıq hissənin xeyrinə bacardıqca çox torpaq kəsilməsi əsas götürülməliydi. Beləki, dağlıq ərazinin ehtiyacını

ödəmək üçün 1923-cü ildən 1926-cı ilə qədər Gəncə qəzasının dağlıq hissəsində torpaq orqanları tərəfindən torpaq quruculuğu idarəsinə Ağdam qəzasından 9820 desyatin yararlı, suvarılmayan vahidlərə çevirdikdə 19640 des. torpaq verilmişdir. Bu rəqəm dağlıq ərazidəki yararlı torpaqların 57%-ni, aran ərazidə isə yararlı torpaqların 15% təşkil edir. Lakin bu dağlıq hissənin torpaq ehtiyaclarını ödəməmişdi (F.1, siy. 74, s.v. 198:4)

9820 des. suvarılan vahidlərdən erməni əhalisinə 7820 desyatin verilmişdir, verilən torpaqların faizi ilə götürdükdə bu 78% təşkil edir. Türk kəndlilərinə başqaları ilə birlikdə 22% verilmişdir, rəqəmlərə çevirdikdə 2150 des. suvarılan vahid edir.

Rəqəmlər göstərir ki, dağlıq hissədə yaşayan 75% erməni kəndlisi 78% torpaq almışdır, yerdə qalan 25%-dən isə digərləri 22% almışdır.

Dağlıq ərazinin az torpaqlı qrupu olan erməni kəndlilərin imtiyazlarına aydınlıq gətirilməsi üçün dağlıq ərazidə olan dairələrin faktiki torpaq istifadəçilərini bütövlükdə götürərək onların real torpaq normasını müəyyənləşdirilmiş, türk və erməni torpaq cəmiyyətlərinin normaları müqayisə olunmuşdur (F.1, siy. 74, s.v. 198: 5)

Dağlıq bölgədə 6 dairə vardır. Dəstafur-əhalisi türklərdir, Balas- əhalisi ermənilərdir. 1220 des.suvarılan toraq, 5742 des. suvarılmayan torpaq vardır. Orta real norma suvarılmayan vahiddə adambaşına 1,12 des. təşkil edir.

Balas dairəsi üzrə 9 torpaq cəmiyyəti, 27000 həyətyanı- təsərrüfat, 12991 nüfus, 4,01 des. suvarılan torpaq və 7,437 des. suvarılmayan torpaq vardır. Adambaşına orta real norma-1,14 desyatindir.

Qarışıq Yuxarı Hacıkənd dairəsi üzrə 11 erməni torpaq cəmiyyəti üçün real norma 1,48 des. bərabərdir, 1 rus torpaq cəmiyyəti üçün-1,8, İsveçrə üçün (39 nüfus) 2,86 des. təşkil edir. Bütün bunlar suvarılmayan vahidlərdir. Bu dairədə türk kəndləri yoxdur.

Qarışıq Yelenendorf dairəsi üzrə 4 erməni torpaq cəmiyyətinin orta norması-1.04 des., 10 türk torpaq cəmiyyətininki- 1 des, 1 alman koloniyasının-1,92 des. suvarılmayan vahid təşkil edir.

Qarışıq Çaykənd dairəsi üzrə 5 erməni torpaq cəmiyyəti üçün 1,55 des. torpaq vardır (F.1, siy. 74, s.v. 198: 6).

9 türk torpaq cəmiyyəti üzrə 1 türk torpaq cəmiyyəti üçün 1,26 des. təşkil edir. Beləliklə, nəticədə məlum olur ki, dağlıq bölgədə ermənilər türklərlə müqayisədə torpaq sahələri ilə daha yaxşı təmin olunublar.

***Kəndyanı örüşlərdən istifadə***

Qəzada olan 101,228 desyatin örüş sahələrindən 61,660 des. dağlıq ərazidə, 39568 des. isə aran torpaqlardadır. Məlumdur ki, təbii-tarixi şəraitinə görə yararlı torpaqların vəziyyəti ilə bağlı aran rayonu dağlıq bölgədən əlverişli vəziyyətdədir, kənd örüşlərinə gəldikdə isə tam əks mənzərə yaranır.

Dağlıq ərazidə bölgünü aparılmasıüçün dağlıq bölgənin iki xarakterik dairəsi: tam türklər olan Dəstəfuru və ermənilər yaşayan Bayan götürülmüşdür.

*Dəstəfur* dairəsində 21 kənd, 35900 baş qoyun və 9.312 des. örüş yeri vardır. Sıxlıq:1 desyatinə 4 baş qoyun və ya bir kənd cəmiyyətinə 443 des. örüş sahəsi düşür.

*Bayan* dairəsində: 9 torpaq cəmiyyəti, 33885 baş qoyun və 16514 des. örüş sahələri vardır. Sıxlıq: 1 desyatinə 2 baş qoyun və ya bir torpaq cəmiyyətinə 1835 des. örüş sahəsi düşür.

Qarışıq *Yuxarı-Hacıkənd* dairəsi üzrə:11 kənd icması üçün 12601 des. örüş sahəsi və ya 1 cəmiyyətə 1146 des. örüş sahəsi düşür. Bir rus cəmiyyəti üçün 1527 des. örüş sahəsi düşür.

Qarışıq *Yelenendorf* dairəsi üzrə: 4 erməni cəmiyyətinin 3021 des. torpağı vardır və ya bir icmaya 755 des. örüş sahəsi düşür. 10 türk icmasının hər birinə 484 des. düşür.

Qarışıq *Çaykənd* dairəsinin 6 erməni icmasına 3452 des. örüş sahəsi və ya bir cəmiyyətə 575 des. örüş sahəsi düşür, 10 kənd üzrə 5,144 desyatin və ya hər cəmiyyətə 514 des. örüş sahəsi düşür.

Dağlıq ərazidə yaşayan ermənilərin və türklərin örüş sahələrinin ümumi rəqəmlərini götürüb, onları təsərrüfatlar və kəndlər üzrə faizlərə böldükdə belə nəticə alınır: 30 erməni cəmiyyətinin ixtiyarında 6620 həyətyanı-təsərrüfat, 35924 desyatin örüş sahəsi, 37 türk cəmiyyətində isə 2444 həyətyanı-təsərrüfat, 19300 desyatin örüş sahəsi vardır. Orta hesabla erməni əhalisinin bir torpaq cəmiyyətinə 1190 des., təsərrüfata isə 5,5 des., bir türk torpaq cəmiyyətinə 924 des., həyətyanı-təsərrüfata isə 7,9 des. düşür ( F.1, siy. 74, s.v. 198: 7)

Yəni, dağlıq hissədə torpaq baxımıdan erməni, rus və alman əhalisi türklərlə müqayisədə nisbətən əlverişli vəziyyətdədirlər.

İşlərin gedişi zamanı buraxılan səhv kimi eyni iqtisadi və təbii-tarixi şəraitə malik rayonlar üçün vahid normanın müəyyənləşdirilməməsi göstərilir.

Eləcə də sovetlərin işğal etdiyi ərazilərdə sovetləşməni tez başa çatdırmaq üçün tələsik gerçəkləşdirdiyi digər məsələlər kimi torpaq bölgüsü işlərində də buraxdığı çoxsaylı texniki səhvlər mövcud idi. Belə ki, 1923-cü ildə torpaq bölgüsü işləri başlanarkən kəndlərin bütün həyati tələbatlarına cavab verən təlimatlar hazırlanmamışdı. İşlər çox yüksək templə aparılırdı ki, bu da torpaq quruculuğu ilə bağlı texniki işlərdə yolverilməzdir.

Təbii ki, bəhs edilən dövrdə Gəncə qəzasındakı işlərin 3 aylıq müddətdə qurtarmaq tapşırığı aldadıcı və mümkün deyildi. Bu vəziyyət texniki təlimatda primitiv metodlardan və vasitələrdən istifadəyə səbəb oldu, bu isə nəticə etibarilə işlərin keyfiyyətinə öz təsirini göstərmişdi.

Ümumiyyətlə, o dördə ASSR-də təkcə Gəncədə deyil digər Şamaxı, Lənkəran və Göyçy qəzalarında da dağlılar arana nisbətən torpaqla az təmin olunublar və ən pis vəziyyətdə türk cəmiyyətləri idilər. 1924-cü ilki işlərin materiallarına əsasən ASSR-in dağlıq rayonlarda yerləşmiş türk kəndlərinin aztorpaq-lılığına dair çoxlu nümunələr mövcuddur, onlarla müqayisədə Gəncə qəzasındakı dağlıq erməni kəndlərinin vəziyyəti tam qənaətbəxşdir.

Milli məqama gəldikdə isə layihələr tərtib olunarkən və normalar hazırlanarkən qəzalararası müşavirələrdə bütün milli qrupların nümayəndələrinin iştirak etdiyi göstərilir və qeyd edilir ki, dağlıq bölgədə milli azlıqlar olan ermənilər, almanlar və ruslar real olaraq həmin dağlıq ərazidə yaşayan türk kəndlilərindən daha çox və daha yaxşı təmin olunmas təkzib olunmayan faktır (F.1, siy. 74, s.v. 198:1, 9)

Sonda Gəncə qəzasındakı torpaq vəziyyətinin analizi ilə bağlı belə nəticələr gəlinir:

1) Təbii-tarixi şərtlərə görə bütün qəza məskunlaşdırılmadan vahid normanın müəyyənləşdirilməsi mümkün deyil;
2) Torpaq paylaşdırılması işləri zamanı qəzanın dağlıq hissəsinin sakinləri mümkün olan əlavə torpaqlar alıblar, xüsusilə bu vəziyyətdə erməni kəndləri türk kəndləri ilə müqayisədə yaxşı vəziyyətdədirlər.
3) Ümumi qayda olaraq qeyd olunmalıdır ki, ASSR-in dağlıq rayonlarının bir çox kəndlərində kəskin aztorpaqlılıq mövcuddur, hətta bəzi yerlərdə yolverilməz miqyasdadır, bununla belə Gəncə qəzasının dağlıq hissəsi bu baxımdan digər dağlıq türk rayonları ilə müqayisədə əlverişli vəziyyətdədir.

Bu vəziyyət aztorpaqlılığın qarşısını almaq üçün çıxış yolu deyil, çünki aztorpaqlı əhalinin torpaqlarının bir hissəsini onlardan almaqla səfillərin sayı artırılır. Məsələnin həlli, milli fərqlərə əhəmiyyət verilmə-mədən düzgün plan əsasında aztorpaqlı rayonlarda kəndlilərin məskunlaşdırılması və köçürülməsin-dədir.

1926-cı il ilin 26 oktyabrda D.Bünyadzadənin məruzəsində Gəncə qəzasının dağlıq hissəsinin aztorpaqlı kəndlilərinin torpaqla təmin edilməsi ilə bağlı XTK-nın layihəsi təqdim olunur. Qərara alınır ki, Layihədə aşağıdakı dəyişikliklər edilsin:

1.Dəstəfur dairəsinə heç olmazsa yaylaqların hesabına pay torpaqları–nın bölünməsini zəruri hesab edilsin.

Yaylaqların paylanmasında Gəncə qəzasının Dağlıq hissəsinin əhalisinə xüsusi diqqət yetirilsin.

2.Azərbaycan Su Təsərrüfatına təklif edilsin ki, 1928-ciilədək Molla Osmanlıda torpaq işləri başa çatdırılsın (F.1, siy. 198, s.v. 197-200, q. 36:111).

3. Azərbaycan Kənd Təsərüfat bankına təklif edilir ki, Zaafqaziya Kənd Təsərrrüfat bankından Azərbaycanda təbii fəlakətlərdən əziyyət çəkənlərə ayrılan 100000 manatın hamısı təcili olaraq, DQMV-nə verilsin (onlar daha çox zərər çəkiblər!!!) (F.1, , siy. 198, s.v. 197-200, q. 36 s.113)

***Gəncə qəzasının Dağlıq hissəsinin azttorpaqlı əhalisinə əlavə pay torpaqlarının verilməsi layihəsi***.

Layihədə Gəncə qəzasının Dağlıq hissəsinin 5 azttorpaqlı dairəsinə aşağıdakı qaydada pay torpaqlarının verilməsi göstərilir:

Bayan (erməni) dairəsinə dövlət fondundan pay torpaqları vermək olar (baxmayaraq ki, türklərlə müqayisədə nisbətən əlverişli vəziyyətdədirlər-G.İ.).

Gəncə qəzasının Seyfəli (keçmiş Şamxor) dairəsinin torpaq quruluşu zamanı əmələgəlmiş 1961 des. dəmyə torpaqlara hesablanmış torpaq sahəsi bu dairədən ayrıca kəndlərə cəmi 1961des. olmaqla:Yuxarı Daşkəsənə 265 des., Bayana 414 des., Aşağı Daşkəsəsnə 50 des., Zağlıya 415 des., Quşçuya 170 des., Kütülə (Kutula) 27 des. Nuzgerə 318 des., Seyidkəndə 72 des. Çovdara240 des. ayrılsın (F.1, siy. 198, s.v. 197-200, q. 36, siy. 198: 111)

Yelendorf dairəsinə 2000 des. Molla Osmanlı sahəsindən, aztorpaqlı Çaykəndə Çalabərtdən 3000 des. verilməsi planlaşdırılır.

Yuxarı Ağcakəndə Ağdamdan artıq 1000 des. Verilməsinə baxmayraq yenə də 500 des., eləcə də Dəstəfura Xaşbulaq yaylaqlarından torpaq sahəsi verilməsi göstərilir (F.1. siy. 198, s.v. 197-200, q. 36:118).

Az K(b)PMİK-in 29 noyabr 1926-cı il 58 saylı protokolunda yer alan Sviridovun Gəncənin Dağlıq hissəsi bağlı komissiyanın məruzəsində Dağlıq Qarabağa birləşmək üçün kəndlərdə yaşayan ermənilərin gətirdikləri motivlərdən bir neçəsi qeyd edilir:

1. Gəncə qəzasının dağlıq hissəsində torpağın bərabər bölünməməsi;
2. Gəncə TK –dən narazılıq;
3. Köçərilərə dəyən ziyan;
4. Aztorpaqlıqla bağlı uşaq və qadın əməyinindən istifadə;
5. Ermənilərin qəzalarda hakimiyyət aparatında istifadə olunmaması;
6. Qəza orqanlarına proporsional nümayəndə seçiminin olmaması;
7. Qəza və dairə arasında yazışmaların rus dilində olması;
8. Fikrin sərbəst ifadə edilməsinə görə cəzalandırıcı orqanlarını təqibi;
10. Gəncə qəza işçilərinə inamsızlıq;
11. Hərbi təlimin bu hissələrdə türk dilində aparılması;
12. Kəndli gənclərin gələcək təhsili üçün təqaüdlərin olmamamsı;
13. Dağlıq Qarabağ bizi Azərbaycandan daha yaxşı başa düşər;
15. Ümumi dil və mədəniyyət birliyi;
16. Özünüidarəetmə hüququ (f.1, iş74, siy 148, q.34: v.89 arx);

Məsələnin həlli üçün 34 praktik təklif verilir. Burada qeyd etmək yerinə düşər ki, AXC dövründə Gəncədə sistemli dövlət təhsilinin əsası qoyulmuşdu. Müəllimlər seminariyası, qız gimnaziyaları fəaliyyət göstərmiş, qısa müddətli (2 aylıq) qadın pedaqoji kurslarının açılması haqqında qanun layihəsi qəbul edilmiş və buna müəyyən dövlət vəsaiti ayrılmışdı [AR MDA: f.895, siy.3, iş 201: v.12]. Eləcə də ikiillik pedaqoji kursların açılması haqqında qanun layihələri hazırlanmışdı. [Азербайджанская Республика, 1998 : 267, 268]. Ən önəmlisi 1918-ci ildə Gəncə qadın gimnaziyasının nəzdində Frebel

(məktəbəqədər tərbiyə nəzəriyyəçisi) sistemi əsasında uşaq bağçası açılmış, bu işi davam etdirmək üçün hökumət bu sahədə kadr hazırlamağı məqsədəuyğun hesab etmiş − gimnaziyanın nəzdində bağça müəllimləri hazırlanmağa başlanmışdı (Qəhrəmanova, 2005: 55). 1919-cu il oktyabrın 23-də isə Azərbaycanda qadın məktəbinin nəzdində uşaq bağçası açılması haqqında qanun layihəsi qəbul edilmişdir (Azərbaycan Xalq Cümhuriyyəti... , 1998: 321). Və bütün bunlar heç bir dini, milli, etnik fərq qoyulmadan bərabər hüquqla sovetlərin ilk illərində də yerinə yetirilirdi. Amma mənəzrə belə idi: "İnqilaba qədər (müharibəyə qədər) qəzada 11 məktəb var idisə, Sovet hakimiyyəti dövründə bu say 9-a endi. Qaraçinar və Yuxarı Ağcakənddə məktəb binası var, Aşağı Ağcakənddə tikilir. Qalanı qaranlıq damlardan ibarətdir. Uşaqların məktəb təlabatı 0% ödənir. 2 feldşer məntəqəsi var. İnqilaba qədər 10 şarpayı var idisə, indi onlar bərbaq vəziyyətdədir" (F.1, iş74, siy 148, q.34:89).

Verilən praktik təkliflərə bir erməni, 1 türk məktəbinin açılması, Dövlət Təhcizat Şöbəsinə Gəncənin dağlıq hissəsində həm türk, həm də erməni əhali üçün ədəbiyyat, dərslik və məktəb ləvazımatları olan dairə kiosklarının açılması, bütün erməni şagirdləri erməni dilində dərsliklərlə təmin olunması, Qəza İK-nə TK yanında kollegiya yaratması və ora bir nüfuzlu erməni, bir türk kəndlinin qəbul edilməsi, Xalq Maarif Komissarına Gəncədə kənd təsərrüfatı texnikumunun erməni bölməsinin açılması təkilif edilir (F.1, iş. 74, siy 148, q.34: 113-115,125-126). Yəni, göründüyü kimi, təhsil sahəsində Gəncədə məskunlaşan ermənilər heç bir diskriminasiyaya məruz qalmadan təhsil hüquqları qanunlara müvafiq qorunurdu.

Dağlıq hissənin (yəni, ermənilərin yaşadığı –İ.G.) torpaqların Xanqərvənd (Hand), Kazyan və Cəmirli (Ağdam) hesabına normaya çatdırılması da təkliflərə əlavə olunur (F.1, siy. 74, s.v. 197-200, q. 36).

Növbəti səhifədə Komissiya üzvü Vəlibəyovun imzası ilə həmin məruzəyə bir növ cavab variantı, məsələnin mahiyyətində oturan problemin nəyə istiqamətləndiyini açıqlamaqla belə verilir:

- Əsas motiv türk əhalinin torpağı hesabına aztorpaqlığı aradan qaldırmaq (ermənilərin əsas hədəflərdən biri-G.İ.);
- Dağlıq Qarabağ rayondan keçilməz dağlarla ayrılıb, əlaqə yolu yoxdur, 200 verst uzaq məsafədən idarəçilik çətindir.
- Qəzada erməni rayonlarınına xüsusi inzaibati hüquqların verilməsi iqtisadi baza olmadan qəzanı daima defsit edir və bərpaedici iş mümkün olmur.
- Milli əhvala vurğu çətin iqtisadi vəziyyətlə bağlıdır, ikincinin aradan qalxması birincini də aradn qaldırır.
- Ermәmi və türklərin birgə yaşayışı antoqonizmin kökünün kəsilməsilə baş verə bilər.
- Birləşmə və ayrılma bütün Zaqafqaziyada buna uyğun ənənəyə çağırış edir (Acarıstan Borçalı qəzasında, Şamxor qəzası, Lənkəran, Dərbənd, Vedibasar, Zəngibasar). Hansı ki, Zaqafqaziyanın yeni iqtisadi rayonlaşmasında inkişafına maneə olar.
- Komissiya Dağlıq Qarabağa birləşmənin bütün motivlərinə etiraz edir.
- Ermənilərin partiya və sovet orqanlarına proporsional nümayəndə seçimi məsələnin düzgün həllinə zamin olmaq və mövcud etibarsızlıq aradan qaldırmaqla mümükün olar (f.1, iş74, siy 148, q.34:90).

## NƏTİCƏ

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti xarici müdaxilələr nəticəsində milli maraqlarında daxili və xarici aspektlərini balanslaşdıra bilmədi. Belə ki, daşnaq ermənilər havadarlarının dəstəyilə soyqırımlar törətməkdə və ərazi iddiaları ilə müdafiə əhəmiyyətini gündəmdə saxlayaraq gərginlik yaratmaqda davam etdilər. Azərbaycan cəmiyyətinin daxili siyasi qüvvələri arasında anlaşıqlıq olduğu halda belə, kənar siyasi qüvvələr öz xüsusi maraqlarını daxili siyasi qüvvələrin bəzi nümayəndələrinə yeritməklə, fikir ayrılığına və tərəddüdlərə nail oldular. Milli mənafelərin qorunması, iqtisadi, siyasi, milli-mədəni və ordunun gücü, yəni milli güc siyasi strategiyanın, xüsusilə də milli təhlükəsizlik probleminin həyata keçirilməsi üçün imkan və şərait yaratmalıdır. Cəmi 23 ay müddətində belə imkan və şəraitin əldə edilməsi, Azərbaycanın siyasi, iqtisadi və geopolitik maraqlarını daha etibarlı şəkildə qorumaq niyyətinin gerçəkləşdirilməsi o dönəmdə çox çətin, bəlkə də mümkünsüz idi.

Nəticədə yaranmış çıxılmaz potensial təhlükələr qarşısında qurduqları milli dövləti qurtarmaq üçün AXC hakimiyyəti nə qədər milli məqsədləri rəhbər tutsa da, siyasi, iqtisadi, psixoloji mübarizə aparsa

da, xalqın məhvinə yönəlik təhdidlərlə üz-üzə qalıb məcburi istefanı qəbul etməli oldu. Bununla da demokratik rejim totalitar rejim tərəfindən işğala məruz qaldı, Azərbaycanda diktatura bərqərar oldu. Bolşeviklər xalqın adından çıxış edərək yaranmış dövləti proletar diktaturası adlandırdılar. Bu isə hakim bolşevik partiyasının hökmranlığına bir növ siyasi pərdə idi. Rusiya imperiyasının dağıldığını elan edən bolşeviklər əslində özünün müstəqilliyini elan etmiş dövləti keçmiş sərhədləri hüdudunda qoruyub saxlamağa cəhd göstərirdilər. Baş verən dəyişikliklər fonunda Mərkəzi Moskva keçmiş imperiya siyasətinin davamı olaraq sovetlər adı altında öz siyasi maraqlarını uzlaşdırmaq, baş verən proseslərdən yararlanaraq işğal etdiyi Qafqazın, Mərkəzi Asiyanın, eləcə də Baltikyanı resublikaların idarə olunması üçün öz rolunu "əvəzsiz" mövqeyə çıxarmaq cəhdində coxüzlü siyasətilə israrlı olmaqda davam etməkdə idi.

Beləliklə, rəsmi sənədlərin verdiyi məlumatlardan da aydın olur ki, istər AXC mənsubları, istərsə də sovetləşmənin ilk dönəmində sovetlərə xidmət edən Azərbaycan kommunistləri (Nərimanov, Şahtaxtinski, Şirvani, Hüseynov...) Azərbaycanın ərazi bütövlüyünün qorunmasına var-gücləri ilə cəhd göstərdilər. Mövcud siyasi durum çox mürəkkəb və qarışıq, "mehriban düşmən" isə güclü və hiyləgər olduğundan təəssüf ki, onlar çox vaxt bir müstəviyə gələ bilmədilər. Kömək göstərə biləcək yeganə dövlət qardaş Türkiyə idi. O da bəzi məqamlarda özü ilə dünya arasındakı (xüsusən də yaxın qonşu dövlətlərin) münasibətlərin dinamikasına uyğun şəkildə milli maraqlarını və uzaqgörən siyasi perspektivlərinə əsaslanan *siyasi* kursunu üstün tutaraq Azərbaycanın yanında olmamaq məcburiyyətində qalırdı ki, bu da başadüşüləndir.

Verilən "müstəqillik" yalnız kağız üzərində yayılan sabun köpüyünə bənzəyirdi. Mərkəzin siyasətinə qarışa və ya müdaxilə edilə bilməzdi və hətta ən yaxşı təkliflər və mülahizələr belə Mərkəzə lazım deyildi. Ərazi məsələsində, sərhədlərin müəyyən edilməsində prinsipial mövqe tutan Az.MİK-in hüquq və səlahiyyətləri məhdudlaşdırılır, bəzən hətta əlindən alınırdı. Çünki Mərkəz hər şeyi "yaxşı" bilirdi. Mərkəz isə "…türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaqlarına tapşırırdı…" (Nərimanov, 1992: 60)

Üümummilli fəlakətin davam hələ uzun illər boyu davam edəcəkdi. Sovetləşmənin ilk illərində Azərbaycandan ərazilərin qoparılması Mərkəzin Şərq siyasətinin bir hissəsi idi. Ermənistanın mövqeyinin gücləndirilməsi iqtisadi, siyasi və ideoloji motivlərlə yanaşı, həm də Türkiyə-Azərbaycan yaxınlaşmasının qarşısını almaq məqsədi daşıyırdı. Azərbaycanın o dövrki siyasi xadimlərinin belə mürəkkəb siyasi şəraitdə və ziddiyətli qarşıdurmalar fonunda göstərdikləri müqavimət bir çox hallarda yetərli olmasa da, D.Bünyadzadənin ətraflı torpaq istifədçiliyi ilə bağlı məruzəsində ciddi təhlillərə əsaslanan fikirləri, Az K(b)PMİK -in sədri Ağamalıoğlu və katibi T.Şahbazinin 9 yanvar 1926-cı ildə SSSR MİK-ə adı çəkilən kəndlərin erməni əhalisi ilə birlikdə ASSR-dən ayrılması məsələsinə qəti etiraz cavabı və Gəncənin Dağlıq hissəsi ilə bağlı yaradılmış komissiyanın "Komissiya Dağlıq Qarabağa birləşmənin bütün motivlərinə etiraz edir" kimi göstərdiyi iradə Moskvanı ermənilərə növbəti Azərbaycan torpaqlarının verilməsini əngəlləyə bildi. Gəncə ilə bağlı qərarın qəbul edilməsi onların tarixi qələbəsi kimi qiymətləndirilə bilər.

**QAYNAQLAR:**

***Arxiv sənədləri***

ARDA: F.28 c, siy.1c, iş.99, 96 v.
AR MDA: F.895, siy.3, iş 201, 19 v.
ARDA: F.28 c, siy.1c, iş.53, 12 v.
ARDA: F.1, iş74, siy 148, q.34, 88 s.
ARDA: F.2502, siy. 2, iş 26, 22 v.
ARMTA: F.379 siy3, iş 426, 38-59 s.
ARMTA:F.379 siy1, iş 7544, 43 v.
ARPİİ SSA: F.276, siy.5, iş.1, 5 v.
ARPİİ SSA: F.276, siy.5, iş.1
ARPİİ SSA: F.276, siy.9, iş.62
ARPİİ SSA: F.609, siy.1, iş.21
ARPİİSSA: F.1, siy.2, iş.25, 18-20 v.
ARPİİ SSA, F.276, siy.9, iş.30, 11 v.

ARPİİ SSA, F.276, siy.9, iş.61, 3 v.
ARPİİ SSA, F. 276, siy.9, iş.62, 7 v.
GMA F.607, siy.1, iş 544, 59 v.
RDSSTA, f.64, s.l, i. l, v.30 arx.
*RDSSTA,* F.1, siy.31, iş.186 a, I h
*RDSSTA,* F.3316, siy. 13, iş 249
Azərbaycanda sovet quruculuğunun yekunları" haqqında N.Nərimanovun V.İ.Leninə hesabatı. 15.09.1921.// RDSSTA, F.5, siy. 1, i. 1219, v. 12
Azərbaycanın fövqəladə səlahiyyətli nümayəndəsi B.Şahtaxtinskinin V.Leninə məktubu. 13.08.1920. // RDSSTA, F.5, siy.l, i.2796
B.Şaxtatinskinin V.İ.Leninə məktubu. 20.09.1920.// RF XSA, f.l, siy.51, q. 321a, i.54859, v.6-7
Azərbaycan Sovet Sosialist Respublikasının Ermənistan Respublikası ilə mübahisəsiz ərazilərinin sərhədlərinin təsviri. 05.08.1920.//ARPİİ SSA, f.l, siy.169, i.249/11
Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasına təlimat. 04.07.1920. //RDSSTA, f.17, siy.3, i.94
L.Qaraxanın Ermənistan Xarici İşlər Komissarına teleqramı. 15.05.1920.// AR DA, F.28, siy.l, i.99, v.100
N.Nərimanovun V.İ.Leninə məktubu.//ARPİİ SSA, **F60**9, s.l, i.71, v.41
RSFSR ilə Ermənistan Respublikası arasında müqavilə. 10.08.1920. //ARPİİ SSA, F.l, siy. 169, i.249/11
№687. Бюллетень № 7. (**27 мая 1920 г.**) МИД Армении об армяно-азербайджанских отношениях, отправке делегации для переговоров в Москву и майском вооруженном восстании большевиков./ ЦГИА РА. F. 200. On. 1. Д. 427(ч. 2). Лл. 305—306. Типографский экземпляр, Опубликовано в: Республика Армения в 1918—1920гг. (политическая история). Сборник документов и материалов. Ереван: Гитутюн. 2000. С. 195-199.
№ 699, 22 июня 1920 г. Телеграмма члена Кавказского бюро ЦК РКП(б) и РВС Кавказского Fронта Г. Орджоникидзе Народному комиссару иностранных дел PCFCP Г. Чичерину о турецком факторе при решении вопроса спорных территорий между Азербайджаном и Арменией не позднее 22 июня 1920 г., РГАСПИ. F. 64. On. 1. Д. 17. Лл. 66-71.
№ 700. (26 июня 1920 г.) Из записи разговора члена Кавказского Бюро Цк Ркп(Б) И Рвс Кавказского Fронта Г. Орджоникидзе с народным комиссаром иностранных дел PCFCP Г. Чичериным о политике в Закавказье и необходимости играть там беспристрастную роль.Тов. Ленину. ГАРF. F. 130. On. 4. Д. 496. Лл. 115—116 об. Подлинник 2.

***Kitablar və sənədlər toplusu***

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar) (1998). 2 clddə, II c., Bakı: Azərbaycan.
Həsənli, C. (2012). *Sovel dövründə Azərbaycanın Xarici Siyasəti (1920-1939).* Bakı:Elm.
Qəhrəmanova A. (2005*). Azərbaycan Demokratik Respublikasında Xalq Marifinin təşkili yolları*. Bakı: OKA Ofset Azərbaycan-Türkiyə Nəşriyyat Poliqrafiya şirkəti.
Məmmədova, Ş. (2004).*Totalitarizmin interpretasiyası. Azərbaycanda Stalin*izm. 1920-1930. Bakı: Adiloğlu.
Musayev, İ. (1996). *Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyt və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər).* Bakı: Bakı Dövlət Universiteti.
Nərimanov, N. (1992).*Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stainə məktub).* Bakı: Azərnəşr.
Адрес- календарь Азербайджанской Республике на 1920 г. (1920). Под.ред. А.М.Ставровского. Ваку.
Азербайджанская Республика.(1998). Документы и материалы 1918-1920 гг. Баку: Элм.

**İxtisarlar**

ARDA- Azərbaycan Respublikası Dövlət Arxivi
ARPİİ SSA- Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi
ARSPİHDA- Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi
ARPİİSPİHDA -Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi
GMA- Gürcüstan Milli Arxivi
*RDSSTA-Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi*
RFXSA- Rusiya Federasiyasının Xarici Siyasət Arxivi
F.-fond
siy.-siyahı
s.v.-saxlanma vahidi
i.-iş
q.-qutu
v.-vərəq